# *Ömər Xəyyam*

# *Rübailər*

***TƏRTİBÇİDƏN***

İranın XI əsrdə yaşamış görkəmli filosof şairi Ömər Xəyyam Azərbaycanın oxucuları arasında geniş şöhrət tapmış, rübailəri Nizami dövründən bu günə qədər xalqımız tərəfindən sevilə – sevilə oxunmuş və əzbərlənmişdir.

Təkcə XX əsrdə şairin lirik – fəlsəfi rübailəri Mikayıl Müşfiq, Mir Mehdi Seyidzadə, Əkrəm Cəfər kimi nüfuzlu qələm ustaları tərəfindən doğma dilimizə tərcümə edilmişdir.

Mikayıl Müşfiq keçən əsrin 30-cu illərində Xəyyamın rübailərinin bir qismini ana dilimizə çevirmiş, görkəmli alim və əruzşünas Əkrəm Cəfər isə şairin bütün rübailərinin öz vəznini və qafiyə sistemini saxlamaqla tərcümə edərək ayrıca kitab haqqında nəşr etdirmişdir.

İndi Ömər Xəyyamın oxuculara təqdim etdiyimiz «Rübailər» kitabı görkəmli şairimiz Mir Mehdi Seyidzadənin yaradıcılıq axtarışlarının məhsuludur.

Şair Ömər Xəyyamın rübailərindən etdiyi tərcüməni iki dəfə – 1955-ci ildə və 1969-cu ildə ayrıca kitab şəklində çap etdirmişdir. Hər iki kəşfi müqayisə edərkən aydın olur ki, şair Ömər Xəyyamın rübailərinin tərcüməsinə çox ciddi yanaşmış, birinci nəşrdə nəzərə çarpan nöqsanları düzəltmiş və o qədər də poetik olmayan misra və ifadələri yenidən işləyib təkmilləşdirmişdir. Məsələn, birinci nəşrdə (33-cü rübai):

Saqi, xoş ətrli qırmızı mey ver,
Boş danışıqlara qoyma qalsın yer
Zaman torpağımızı kuzə etməmiş
Mey içim, edim mən çəmənzarı seyr! – şəklində verilmiş həmin rübai ikinci nəşrdə aşağıdakı formada işlənib, təkmilləşdirilmiş, gözəlləşdirilmişdir:

Gül rəngli şərab ver bizə, ey saqi!
Uymayaq söhbətə, sözə, ey saqi.
Bir kuzə mey gətir, torpağımızdan
Dövran düzəltməmiş kuzə, ey saqi.

Belə misalların sayını artırmaq da olar.

Bunu da oxucularımızın nəzərinə çatdırmağı lazım bilirəm ki, Ömər Xəyyam rübailərinin 1-ci nəşrinə görkəmli alimimiz, filologiya elmləri namizədi mərhum Məmmədağa Sultanov şairin dövrü həyatı və rübailərinin fəlsəfi mahiyyətini geniş şəkildə şərh edən dəyərli bir müqəddimə yazmışdı.

Lakin bizə məlum olmayan səbəblərdən həmin məqalə şairin rübailərinin ikinci nəşrinə daxil edilməmişdir.

Oxucularımızın Xəyyam haqqında, rübailərinin məzmunu və ideya istiqaməti barədə düzgün, dolğun təsəvvür əldə etməsi üçün son dərəcə faydalı olacağını nəzərə alaraq onu şairin latın qrafikası ilə çap olunan bu kitabına əlavə etməyi zəruri saydıq.

İnanırıq ki, gözəl şairimiz Mir Mehdi Seyidzadənin böyük məhəbbətlə və ustalıqla, sadə və rəvan bir dildə doğma dilimizə çevirdiyi bu rübailər Xəyyamsevərlər və gənc oxucularımız tərəfindən sevinclə qarşılanacaq və sevilə-sevilə oxunacaqdır.

**Əlibala Hacızadə**

**16.03.2004. Bakı**



## ÖMƏR XƏYYAM

Dünyanın mədəni xalqları arasında şöhrət tapan klassik şairlərdən biri də XI əsr filosof şairi Ömər Xəyyamdır.

Ömər Xəyyamın həyatı haqqında əlimizdə müfəssəl məlumat yoxdur. Ondan bəhs edən şərq təzkirəçiləri şairin həyatı haqqında demək olar ki, heç şey deməmişdir. Xəyyam yaradıcılığını tədqiq edən Şərq və Avropa alimlərinin əsərlərində də bu məsələ son dərəcə səthi işıqlandırılmışdır. Hələlik, mənbələrdə bu böyük şair haqqında aşağıdakı məlumat verilməkdədir:

Xəyyam ( bəzən də Xəyyami) təxəllüsü ilə bütün dünyada şöhrət tapan, hikmətli rübai ustadının adı Ömər, atasının adı İbrahimdir. O, 1040-cı ildə Xorasan əyalətinin Nişabur adlanan mahalında bir çadırçı ailəsində anadan olmuşdur. Xəyyam təxəllüsü də atasının sənətindən alınmışdır. Ömər Xəyyam ibtidai təhsilini vətəni olan Nişaburda alaraq, öz dövrünün əsas elm sahələrinə yiyələnmişdir. O, xüsusilə hikmət, nicum, riyaziyyat, kimya və tibb elmləri üzrə çalışaraq, sonralar bu elmlər sahəsində kəşflər belə etmişdir. Buna görə də Xəyyamın məşhur münəccim və riyaziyyatçı kimi də adı çəkilməkdədir. O, poeziyaya meyl etmiş, misli görünməmiş dərin mənalı rübailər yazmışdır. Xəyyamın ara-sıra yazdığı bu rübailər sonralar ona böyük şöhrət qazandırmış və onu dünya şairləri cərgəsinə daxil etmişdir. Bu rübailər Xəyyamın yaradıcılığında miqdarca çox cüzi bir yer tutsa da, məzmunca olduqca mühüm fəlsəfi fikirlər ifadə etdiyindən daima diqqət mərkəzində olmuşdur.

Ömər Xəyyam, Məlikşah Səlcuqinin vəziri dərəcəsinə yüksələn, məşhur «Siyasətnamə» əsərinin müəllifi Nizamülmülklə, sonralar ismaililər firqəsinin başçısı olub, Səlcuq hökmdarlarını qorxu altında saxlayan Həsən Sabbahla bir məktəb yoldaşı olmuşdur. Lakin Xəyyam heç bir şöhrət və mənsəb sahibi olmağa çalışmamış, bütün ömrünü elmə, fəlsəfəyə və poeziyaya sərf etmişdir. Xəyyam Yaxın Şərqin bir çox məşhur şəhərlərini gəzmiş və dövrünün adlı-sanlı alimləri ilə tanış olaraq, yeri gəldikcə, onlarla elmi, ədəbi mübahisələr etmişdir. Ömər Xəyyam orta əsr feodalizmi şəraitində çox dəb olan məddah saray şairləri cərgəsinə daxil olmaq istəməmişdir. Əksinə, o, azadlığı, mərdliyi hər şeydən üstün tutaraq yaşamış, ancaq Məlikşahın rəsmi xahişi ilə özünün məşhur «Cəlali təqvimini» (Nicum cədvəlini) yaratmışdır. Bu təqvim bir çox cəhətdən hələ bu gün də öz elmi əhəmiyyətini itirməmişdir.

Xəyyam 1123-cü ildə vətəni Nişaburda vəfat etmişdir.

* * *

Belə bir sual meydana çıxır: konkret elmlər sahəsində bir neçə kəşflər edən Ömər Xəyyam necə olmuş ki, ancaq kiçik rübailəri ilə dünya şöhrəti qazanmışdır? Bu suala cavab vermək istəyən Şərq və Qərb tədqiqatçıları çox haqlı olaraq qeyd etmişlər ki, Xəyyamı klassik dünya şairləri zirvəsinə qaldıran rübailəri misilsiz dərəcədə sənətkaranə yazılmış və dörd sətir içərisində, cildlərlə kitaba yerləşən dərin, fəlsəfi fikirlər ifadə etmişdir. Xəyyam rübailərinin bizdə təkrar – təkrar çap edilməsinin bir səbəbi də onun materialist, atesit dünya görüşünün bu rübailərdə inikası olmuşdur.

Xəyyamın bütün rübailəri dərin fəlsəfi fikirlərlə doludur. O hər şeyin əsl mahiyyətini bilməyə çalışan, həqiqət axtaran, onu tapmadıqda məyus olan bir filosof – şairdir. Xəyyamın hər rübaisi insanı fikrə daldırır, onu ayıldır, onu bu dünyaya bağlayaraq, o biri dünyanın boş vədlərindən uzaqlaşdırır. Buna görə də müftilər, din xadimləri Xəyyamı kafir adlandıraraq, onu lənətləndirirdilər. Lakin Xəyyam ona etiraz edən belə müftilərə cavab olaraq, qorxmadan onları qaniçən adlandırır və yüksək səslə deyirdi:

Ey şəhər müftisi, səndən pərgarıq!
Bunca sərxoşluqla səndən huşyarıq.
Biz şərab içirik sən xalq qanını,
İnsaf et, hansımız daha qəddarıq?

Ömər Xəyyam Bağdada xəlifələrinin hələ fitva verdiyi tarixi şəraitdə yaşayıb yaradırdı. Bu zaman hər adam materialist ideyalar irəli sürmək, ateist fikirlər söyləmək qüdrətinə malik ola bilməzdi. Bu zaman hər kəs islamiyyəti bir cür şərh etməyə çalışaraq, onu hakim feodal dövlətinin, daha yararlı surətdə xidmətinə vermək istədiyi halda, ancaq Xəyyam kimi cəsur bir filosofa yaraşardı ki, onlara gülərək desin:

Məzhəb, din düşünür bir yığın insan,
Bir yığın da «şəklə» «yəqində» heyran.
«Qafillər, yol nə o, nə budur!» - deyə
Pusqudan qışqırır biri nagahan.

O, din xadimlərinin səsini batıraraq, deyirdi:

Cənnət – cəhənnəmə girən yox, könül,
Gedib o dünyanı görən yox, könül.
Ümid və qorxumuz o şeydəndir ki,



Onlardan heç nişan verən yox, könül.

Buna görə də Xəyyam hər kəs üçün nəsib olan bu az ömrün mənalı və şadlıqla keçməsini təbliğ edirdi. O hər şeyin ancaq bu dünyada olduğunu, öləndən sonra hər şeyin bitdiyini dərk edirdi. Xəyyam o dünyaya köçüb gedənlərin çox olduğunu və hər kəsin də qayıtmadığını göstərərək, oxucularını öyrədirdi ki;

Şad ol, ömrü çarpma kədərlə daşa,
Bu zalım dünyada sən adil yaşa.
İndi ki, dünyanın sonu yoxluqdur,
Zənn et, yoxsan, ömrü azad vur başa.

Xəyyam cənnətin də, cəhənnəmin də bu dünyada olduğunu belə izah edirdi:

Dünya – ömrümüzdən keçən bir andır,
Ceyhun – gözümüzdən axan neysandır;
Cəhənnəm – boş əməl qığılcımıdır,
Cənnətsə xoş keçən rahat zamandır.

O, başqa bir rübaisində naəhl və yaramaz admlarla söhbəti cəhənnəm adlandırmışdır. Beləliklə, aydın olur ki, Xəyyam çox kəskin bir surətdə dinin əleyhinə olmuş və bu dünyada hər səadəti insanın zəhmət və iradəsində görmüşdür. O, fəlakətlərin insandan gücsüz olduğunu öyrədərək (rübai 222), allahın varlığını inkar etmək dərəcəsinə qədər yüksəlirdi. Xəyyam deyirdi: «Hər şey allah əlindədirsə bəs nə üçün o, yer üzündə bu qədər ədalətsizliklər yaratmışdır, nə üçün o öz yaratdığını belə nöqsanlı etmişdir? Yaxud nə üçün o (allah) bütün əməllərini əvvəlcədən alnına yazdığı bəndəsinə nöqsan tutaraq, onu bu dünyada etdiyi işlərinə görə cəhənnəmdə yandırır?» (rübai 226, 228, 331)

Nəhayət, Xəyyam dini ehkamlara böyük bir zərbə vuraraq, bu dünyanın çox eybəcər yarandığını elan edirdi. Zülm, sitəmlə göylərə yüksələn həşəmətli sarayların uçulub gedəcəyini, onun xarabaları üzərində bayquşların ötəcəyini deyən Xəyyam öz dövrünün bütün qanunsuzluq və ədalətsizliklərinə bir ittihamçı kimi səsini yüksəldərək deyir:

Əlimdə olsaydı əgər iqtidar
Bu köhnə fələki kökündən yıxar,
Təzədən elə bir fələk qurardım

Ki, hər kəs yaşardı azad, bəxtiyar.

Şübhəsiz ki, belə ateist fikirlər Xəyyamın materialist görüşlərindən doğurdu. O, varlığın (maddənin) əbədiyyətini təsdiq edir, onun nə ibtidası, nə də sonu olmadığını anlayırdı. O, insan şüurundan asılı olmayaraq, mövcud olan obyektiv varlığı qəbul edirdisə də, bu varlığın nədən ibarət olduğunu hələ kamil surətdə dərk edə bilmirdi. Bir çox rübailərində Xəyyam özü verdiyi suallar qarşısında aciz qaldığını bildirir, bu «əvvəli və sonu bəlli olmayan, dairəvi dövr edən dünyada heç kəsin bizim haradan gəlib, haraya getdiyimizi» bilmədiyini irəli sürərək (rübai 21), bir aqnostik kimi varlığın əsl mahiyyətini bilməyin hətta mümkün olmadığı qənaətinə gəlirdi (rübai 13). Xəyyamın materializmi, mahiyyət etibarilə, nöqsanlı və sensualist bir materializm idi.

Belə olduğu təqdirdə, şair bu dünyada vaxtını nəşədə keçirməyi və ömrünü dərd, ələm içində keçirməməyi məqsədə müvafiq bilirdi. Xəyyamın əsərlərində tez – tez təsadüf edilən nəşə, şərab, gözəl meyxana, çəng, saqi, çəmən, saz, nəğmə və s. bu kimi sözlər onun məhz bu fikri ilə bağlıdır. Təəssüf ki, bəzi tədqiqatçılar Xəyyamın çox şərab içməkdən və gözəllərlə vaxt keçirməkdən bəhs etməsinə əsaslanaraq, haqsızcasına onu əyyaş və sərsəri adlandırmışlar. Bu fikir kökündən səhvdir. Xəyyam özü bir rübaisində şərab içməkdən nə məqsədi olduğunu belə izah etmişdir:

Mey iç sən, möhkəm ol, ağıldan qaçma,  
Cahillik eyləyib söyləmə, saçma.  
İstəyirsən sənə mey halal olsun,  
Kimsəni incitmə, vurma, əl açma.

Yaxud:

Mey içmək, şad olmaq ayinim mənim,  
Bilməməkdir küfrü din, dinim mənim.  
Dünya gəlininə dedim: « - Kəbinin?»  
Dedi: « - Şad könlündür kəbinim mənim».

Buradan aydın olur ki, Xəyyam, bütün həyatı zövqləri unudaraq, şərab içib özündən gedən sərxoş və pozğun bir əyyaş deyil, bəlkə, həkimanə və gözüaçıq bir surətdə ayıq yaşamağı, başqalarına əziyyət verməməyi, xeyirxah olmağı təliğ etmişdir. Ona görə də xalq arasında «Xəyyamanə mey içməyi hər adam bacarmaz» - deyə bir məsəl də vardır. Xəyyam



əvvəlcədən duyurdu ki, onu bir çoxları düzgün anlamayacaqlar, buna görə də bir rübaisində hər tayfanın onu öz qabiliyyəti daxilində dərk edib qiymətləndirəcəyini xəbər verirdi.

* * *

Xəyyamın rübailərinin miqdarı haqqında müxtəlif fikirlər vardır. Bəziləri bu irsi ancaq 121 rübaidən ibarət hesab etdikləri halda, bəziləri onun sayını minə qədər artırmışlar. Tarixində ilk dəfə olaraq məşhur rus şərqşünası V.Jukovski Xəyyam rübailərini tədqiq edərək, onun çox qarışdırıldığını aydın faktlarla sübut etmiş və hətta Xəyyam adına çıxan 82 rübainin Xaqani, Ənvəri, Sədi, Hafiz kimi məşhur şairlərə aid olduğunu da göstərmişdir. Buna görə də Xəyyamın görüşlərindən bəhs edən zaman başqa şairə məxsus olan rübailəri əsas götürmək olmaz. bəzi Avropa şərqşünasları məhz Xəyyamın qələminin məhsulu olmayan rübailərdən çıxış edərək, səhvən onu sufi şair adlandırmışlar. Halbuki Xəyyam bütün dinləri inkar etdiyi üçün, islam dini daxilində yaranmış bütün təriqətlərə də yabançı idi.

Xəyyamın rübailəri ilk dəfə XIX əsrdə Fizcerald tərəfindən ingilis dilinə tərcümə edildikdən sonra, böyük sürətlə Avropada şöhrət qazandı və bir – birinin ardınca müxtəlif dillərə (fransız, alman, italyan, rus, türk və s. dillərə) gah nəsrlə, gah nəzmlə tərgümə edildi. xəyyamı dünyanın məşhur filosofları olan – Höte, Heyne, Volterlə müqayisə etmişlər. Təsadüfi deyildir ki, Xəyyam şərq mənbələrində «həkim» adlandırılmışdır. Bu ləqəbi almaq tarixdə hər şairə nəsib olmamışdır. Ömər Xəyyam öz dövründə naəhl adamların onu əhatə etdiyindən şikayətlənərək, hələ bir çox mənaları deməyib, qəlbində basdırdığı acı – acı qeyd etmişdir.

Lakin Xəyyamın demiş olduğu fikirləri də onu böyük bir şair kimi qiymətləndirməyə haqq verir.

Xəyyam rübailəri hələ bu gün də başqa – başqa dillərə tərcümə edilməkdədir. Onun rübailər kitabçası gözəl bir bayram hədiyyəsi kimi əldən – ələ gəzir, məclislərdə şən səslənən bir təmtəraqla oxunur, onun həyatı sevməyi, azad sevgini və mənalı yaşamağı təbliğ edən bu rübailəri ölməz bir qüvvəyə malikdir.

Xəyyamın rübailəri ilə Azərbaycan xalqı hələ XII əsrdən tanışdır. Dahi Nizami, Xaqani, Füzuli və başqa Azərbaycan klassikləri Xəyyamı sevə – sevə oxumuşlar. Onun rübailəri Azərbaycan xalqının dilində əzbər olmuşdur. Xəyyamın rübailəri bir neçə dəfə Azərbaycan dilinə tərcümə və nəşr edilmişdir.

***M.S.Sultanov,***

**filoloji elmləri namizədi**

Lalələr bitirən hər laləzarın
Laləsi qanıdır bir şəhriyarın.
Torpaqdan göyərən incə bənövşə
Xalıdır bir gözəl dilbər nigarın.

Bu ot ki göyərib çay qırağından
Bitib bir dilbərin al dodağından.
Asta gəz, çəməndə hər qızıl lalə
Çıxıb gözəllərin boz torpağından.

Bilinməz nə vaxtdan hərlənir bu tas;
Nə zaman pozular bu gözəl əsas.
Belə nazik fikri dərindən duyub,
Ağıl ölçüsüylə dərk etmək olmaz.

Bizdən əvvəl varmış bu axşam – səhər,
Yəqin bir məqsədlə dönərmiş göylər.
Amandır, asta gəz, göz bəbəyidir
Nazənin gözəlin, bu gəzdiyin yer.

Səhərin mehindən açılıb güllər,
Gül – çiçək eşqilə ötür bülbüllər.
Zövq al bu bağçadan, çox belə güllər
Yaradıb, sovurub torpağa illər.

Dünən meyxanada mən bir qocadan
Soruşdum ki, gedib bu qədər insan,
Onlardan xəbər ver. Dedi: - Şərab iç!
Gedənlər qayıtmaz bir də heç zaman.

Səhər zamanıdır, ey nazlı dilbər!



Mey gətir, çal sazı, oxu nəğmələr.
Yüz min cəmşidləri, keykavusları
Yer udub, unudub daş qərinələr.
Gəldik, getdik, dünya nə fayda gördü?
Ömrümüzün kökü harda göyərdi,
Fələkin odunda yanan canlardan
Yüksələn tüstüdən kim xəbər verdi.

Həyatın sirrini bilsəydi ürək,
Bilərdi ölümün sirri nə demək.
Bu gün sağlığında bir şey bilməyən
Ölüb getdi, sabah nə dərk edəcək?

Əfsus, gəncliyimin dövranı getdi,
Ömrümün xoş bahar zamanı getdi,
Gənclik dedikləri o quş, bilmirəm,
Nə zaman tərk edib bu canı getdi.

Düşmə arxasınca sən biliklərin,
Oxşa tellərini incə dilbərin.
Zəmanə qanını tökməzdən əvvəl
Mey iç, meyxanalar olsun qoy yerin.

Əkmə qəm acağı qəlbində bir an,
Şadlıq kitabını oxu hər zamanı.
Şərab iç, xoş keçin, bəlli bir şeydir
Dünyada nə qədər yaşayır insan.

Sabahı bilən yox, olma pərişan,
Çalış, qəlbin dərddən olmasın şan – şan;
Şərab iç, ay üzlüm, ay işığında;
Çox gəzər ay, bizdən tapmaz bir nişan.

Bahardır, seyrə çıx bir çəmənzara,
Yoldaş ol iki – üç gözəl dildara.
Qədəhi al ələ, badə içənlər
Uymaz məscidlərə, kəlisalara.

Nə yazıq, saraldıq bir yarpaq kimi,
Biçdi ömrümüzü göy[1] oraq kimi.
Göz yumub açınca yaşamadıq, ah!
Söndü həyatımız bir çıraq kimi.

Madam gönlümüzcə olmayacaq iş,
Nə fayda verəcək çalışmaq, təşviş!
Dünyaya gec gəldik, tez getməliyik
Deyə, bu həsrətlə günümüz keçmiş.

Səadət axtarma, həyat bir andır.
Hər toz Cəmşid şahdan, Keydən nişandır.
Ömrün mahiyyəti, dünyanın halı
Röyadır, xəyaldır, ahdır, yalandır.

Yazdır, bulut gülə səpir jaləni,
Qalx, şərab içməyə al piyaləni.
Bu gün seyrangahın olan çəmənlər.
Qəbrindən bitirər sabah laləni.

Hər çiçək yaratsa bu qoca dövran,
Yenə də torpaqla eyləyər yeksan.
Bulut su yerinə torpaq çəksəydi
Yağardı göylərdən dost qanı hər an.

Xəyyam ki, tikərdi hikmət xeyməsi,
Yandırdı ömrünü qəmin kürəsi.

[1] Göy – fələk.



Ömrünün ipini əcəl qayçısı
Qırıb məhv elədi,  çıxmadı səsi.

Sadəlövh könlümdən mən cana gəldim,
Cəfakeş canımdan fəğana gəldim,
Mənsiz də dünyanın işi keçərmiş,
Əcəba, nə üçün cahana gəldim?!

Könül, zəmanədən ehsan gözləmə,
Dövran gərdişindən səhman gözləmə,
Sən dərman axtarsan, artacaq dərdin
Döz acı dərdinə, dərman gözləmə.

Mey içsən ağıllı bir insanla iç,
Ya incə gülüşlü bir cananla iç
Çox içmə, gizlin iç, meyə alışma,
İçsən xumar gözlü bir ceyranla iç.

Göyləri  bəzəyən parlaq ulduzlar
Dünyaya gəlirlər, gedirlər təkrar,
Göyün ətəyində, yerin qoynunda
Tanrı ölməyəncə doğulan xalq var.

Toz oldu bu qara qəbrə gedənlər,
Çürüdü, töküldü zərif bədənlər,
Ah, bu nə şərabdır, getmiş özündən
Ondan azca dadıb, az nuş edənlər.

Biz bir oyuncağıq, fələk oyunbaz,
Bu bir həqiqətdir, deyildir məcaz.
Vücud səhnəsində oynadıq, bir – bir
Ədəm sandığına görməsək olmaz.

Çətin sövdalara düşmə heç zaman,
Doldur piyaləni, nuş et durmadan.
Üzümün qızıyla oturub keyf çək
Haram qız yaxşıdır, halal anadan.



İnsana daima qəm verir fələk,
Bir qursa, birini dağıtsın gərək.
Dünyaya gəlməyən bilsə gələnlər
Nə çəkir, gəlməkçün bəsləməz dilək.

Biz getsək yenə də duracaq cahan,
Bizdən qalmayacaq bir iz, bir nişan.
Biz yoxkən çəkmirdi o heç bir zərər,
Getsək də görünməz onda bir nöqsan.

Ey fələk, xəsisə izzət verirsən,
Ev, hamam, dəyirman, sərvət verirsən,
Sənin tək fələkə tüpürmək gərək;
Azad adamlara zillət verirsən.

Ey dost, tamah üçün gəzib dörd yanı,
Nə qədər ölçəsən bütün dünyanı
Gediblər, gedərik, gəlib – gedərlər,
Bir an muradınca yaşayan hanı!

Ulduzla doludur bu böyük eyvan,
Onlara çox ağıl qalmışdır heyran.
Ağıl kələfini itirmə əsla!
Kainat özü də qalıb sərgardan.

Saqi, xoş ətrili qırmızı mey ver,
Boş danışıqlara qoyma qalsın yer!
Zaman torpağımı kuzə etməmiş
Mey içim, edim mən çəmənzari seyr.

Xoş həyat kədərlə vurulmaz başa,
Şad könül şüşəsi çırpılmaz daşa.
Kim bilir dünyada nələr olacaq!

Şərab iç, ay üzlü gözəl sev, yaşa.
Qələndərxislət ol, meyxana axtar,
Sevdiyin yar olsun, mey, kamança, tar.
Əlinnə qədəh al, çiyninə kuzə,
Vaxtı boş keçirmə, mey iç, ey nigar!

Bir yolun üstündə torpağımızdan
Kuzə düzəltməmiş kuzəçi, canan!
Doldur, o zərərsiz kuzədən mey iç,
Ver bir də mən içim, zövq alaq bir an.

Gördüm bir rind minib yer səməndinə,
İnanmır heç küfrə, islama, dinə.
Kimdə cürət vardır bu arif kimi
Şəkk gətipsin haqqa, şərrə, yəqinə.

Kuzəni, qədəhi alıb, ay gözəl,
Bir bulaq başına çəmənzarə gəl!
Çox ayüzlüləri bu fələk yüz yol
Kuzəyə döndərib, məhv edib əcəl.

Bahardır mey içir çəməndə lalə,
Bir incə dilbərlə qaldır piyalə
Bu mavi göy yıxıb səni torpağa
Bir gün həyatını verər zəvalə.

Madam çox yaşamır dünyadə insan,
Meysiz, sevgilisiz yaşama bir an.
Axtarma qədimdir, tazədir aləm,
İstər bizdən sonra uçulsun cahan.

Əl çəkmir, ey könül, qəm – kədər səndən,
Ruhun ayrılacaq bir gün bədəndən.



Hələ torpağından səbzə[1] bitməmiş
Xoş yaşa, ayrılma yaşıl çəməndən.
Gəlmədim arzumla bura gəlirkən,
Getmək də yəqindir dünya evindən.
Ey yüngül ayaqlı saqi, şərab ver!
Cahanın qəmini meylə yuyum mən.

Gördüm ki, tikilir uca bir bina,
Döyüb ayaqlayır palçığı bənna.
Palçıq deyir: - Sən də torpaq olarsan,
Gəl əzab çəkdirmə insan oğluna.

Gülərkən baharda çiçəklər, güllər,
Çəməndə mey versə bir nazlı dilbər
Başqalara bu söz çirkin olsa da,
İtəm cənnət adı çəksəm mən əgər.

Nifaq bayrağını ataraq həmən,
Qoca yaşda şərab içəcəyəm mən.
İndi kef çəkməyim, bəs nə vaxt çəkim;
Yaşım ki, keçmişdir mənim yetmişdən.

Ömür keçdi istər şirin, istər təlx,
Peymanə doldumu, nə Bəğdad, nə Bəlx.
Bizdən sonra bu ay çox batıb – çıxar;
Şərab iç, bu qəflət yuxusundan qalx.

Əsir olma bunca qoxuya, rəngə.
Düşünmə çirkini, uyma qəşəngə.
Olsan dirlik suyu – Zəmzəm çeşməsi
Yer udub döndərər səni səhəngə.

[1] Səbzə – göy ot.

Bir zaman məktəbə getdim uşaqkən,
Bir zaman sevindim dəbirliyimdən.
İşə bax, dünyaya su kimi gəldim,
Sonra külək kimi əsib, getdim mən.

Zöhrəni yaradan gündən təbiət
Yaratmayıb meydən gözəl bir nemət!
Al şərabdan yaxşı nə ola bilər!
Mey satan, bax, buna edirəm heyrət.

Badə verən saqi olsa bir dilbər,
Dirlik suyu olsa şərabım əgər,
Zöhrə mütrüb olsa, İsa da həmdəm
Əyləyə bilmərəm olsa qəm – kədər.

Gül üzlü gözələ vurğundur könül,
Əlimdə gül rəngli badə var, ey gül!
Qoymaram ürəkdə bir arzum qalsın
Dönüb ta cüzilər olmayınca küll.

Eşqin kitabilə fala baxırkən
Bir hal əhli gördüm çəmənlikdə mən.
Dedi: - xoşbəxt odur ay tək yarı var,
Sevgi gecəsi də uzundur ildən.

Bir kaşı kuzəni sərxoşluğumdan
Sındırıb, buraxdım dünən çox nöqsan.
Kuzə dedi: - Mən də sənin kimiydim,
Mənim tək olarsan sən də bir zaman.

Sevgilim, gəl sənə mən verim xəbər.
Yalnız iki sözlə deyim müxtəsər:
Torpağa girərəm məhəbbətinlə,
Eşqinlə qalxaram yerdən, ey dilbər.



Ömrün məhv olmamış qanlı əcəldən
Buraxma qədəhi, çiçəyi əldən.
Doldur ətəyini qızıl güllərlə,
Zövq al sərv boylu zərif gözəldən.

Mey içim gərək mən gənclik zamanı,
Şərabla unudum bütün dünyanı.
Acı olsa belə mey həyatımdır,
Xoşdur acı ömrün ən çətin anı.

Saqisiz, şərabsız bir dövran heçdir,
Meysiz və nəğməsiz keçən an heçdir.
Dünyaya baxdıqca görürəm yalnız
Bir işrət qalacaq, bu cahan heçdir!

Dərd çəkib, dünyadə fəryad eyləmə,
Keçmiş kədərləri, gəl, yad eyləmə,
Könül ver nazənin bir pərizada,
Badə iç, ömrünü bərbad eyləmə.

Yardı işığıylə gecəni məhtab,
Bu an bir də gəlməz, durma, iç şərab!
Düşər qəbrimizə çox ay işığı,
Xoş ömür sürməyə fürsət axtar, tap.

Aşiq içsin gərək il boyu badə,
Divanə tək rüsvay olsun dünyadə.
Ayıqkən çəkirik hər şeyçün kədər,
Məst ikən veririk hər şeyi badə.

Olmayaq gündəlik ağla biz düşkün…
İstər yüz il yaşa, istərsə beş gün
Birdir, bu dünyadə zövq al, şərab iç,
Kuzəyə dönmədən hələ sümüyün.

Bir səhər səs gəldi meyxanəmizdən,
Gəl ayrılma, ey rind divanə, bizdən.
Həyat peymanəmiz dolmayınca, qalx,
Zövq alaq bu dolu peymanəmizdən.



Ey Xəyyam, bircə bax, dad çəkir cahan
Dünyanın dərdini çəkən insandan.
Mey iç sürahidən saz nəğməsilə,
Dəyməmiş qədəhin daşa bir zaman.

Düşərək əcəlin çənginə həmən
Ömrümün ağacı qopsa kökündən
Onda torpağımdan qədəh düzəldin,
Bəlkə mey dolanda diriləröm mən.

Bu fələk heç kəsə sirrini açmaz,
Sitəmlə öldürmüş min Mahmud – Ayaz.
Ömür bir dəfədir, gül rəngli mey iç,
Dünyadan gedənlər bir də qayıtmaz.

Sənin kimi gözəl görməyib cahan,
Əzizsən gözümdən, şirin canımdan.
Bu dünyada candan şirin şey olmaz,
Yüz cana dəyərsən, ey dilbər canan.

Bu gündən sabaha yetişərmi əl?
Xəyaldır sabahçün bəslənən əməl.
Könlün oyaq ikən vaxtı itirmə,
Daim yaşamağa vaxt verməz əcəl.

Ağıl bu qədəhə söyləyir əhsən.
Öpür məhəbbətlə min yol üzündən.
Onu gör nə zərif yaratmış fələk,
Sındırıb məhv edir sonra qəfildən.

Bir kuzəçi gördüm ayaqda durmuş,
İnsan torpağından tayalar vurmuş,
Dilənçi əlindən, şah kəlləsindən

Kuzeyçin boğazlar, qulplar yoğurmuş.

Yolum kərxanəyə düşmüşdü dünən,
Orada minlərcə kuzə gördüm mən.
Hərə öz diliylə mənə deyirdi:
Hanı kuzə alan, satan, düzəldən?

Gəlişimdən fayda görmədi həyat,
Getsəm də dəyişməz qoca kainat
Bu gəliş – gedişin səbəbi nədir?
Eşidə bilmədim kimsədən, heyhat.

Cənnət – cəhənnəmə girən yox, könül,
Gedib o dünyanı görən yox, könül,
Ümid və qorxumuz o şeydəndir ki,
Onlardan heç nişan verən yox, könül.

Sərxoşa rast gəlsə dolu piyala,
Onu sındırmağı almaz xəyala.
Nazənin başları, zərif əlləri
Kim qurdu, kim qırdı saldı bu hala.

Tanrı, yaratmısan bir incə dilbər,
Bir dodağı şəkər, saçları ənbər,
Sonra da deyirsən ona baxma, bu
Əy, ancaq dağıtma deməyə bənzər.

Ağlı olan suya düzərmi kərpic,
Kilsəyə, məscidə uyan gicdir – gic!
Kim deyir ki, Xəyyam cəhənnəmlikdir
Cəhənnəmi görüb, gələn varmı heç?

Mey ver, saqi, həyat bircə nəfəsdir,
Bir an şadlıq etsən dünyada bəsdir.



Nə tapsan qane ol, cahanda arzun
Baş tutmaz, çırpınmaq, məncə, əbəsdir!

Nə  görsən insanda xeyirdən, şərdən,
Hər kədər, hər sevinc gəlsə qədərdən
Fələkdən bilmə ki, ağıl yolunda
Min dəfə acizdir fələk bəşərdən.

Bizi pəncəsində sıxmamış zaman
Mey içək, ömrümüz xoş keçsin bir an.
Dünyadan gedəndə bu zalım fələk
Bir su içməyə də verməyir aman.

Tutaq, Ərəstu tək vardır hikmətin,
Qeysər, Fəğrur kimi vardır qüdrətin,
Cəmşidin camından şərab iç, çünki
Torpağın altında sönər şöhrətin!

Ey şəhər müftisi, səndən pərgarıq,
Bunca sərxoşluqla səndən huşyarıq.
Biz şərab içirik, sən xalq qanını,
İnsaf et, hansımız daha qəddarıq.

Bu fələk bənzəyir çevrilmiş tasa,
Zirəng insanları batırır yasa.
Qədəhlə şüşənin dostluğu qandır,
Dodaq – dodağa da öpüşmüş olsa.

Tusun barısında gördüm ki, bir quş
Caynağında Keyin başını tutmuş.
Kəlləyə söyləyir, əfsuslar olsun,
Zənglərin səsini aləm unutmuş.

Bu torpaq ki, onu tapdayır heyvan,

Olmuş bir zamanlar gül üzlü canan.
Eyvanda gördüyün kərpic yaranmış
Vəzir barmağından, sultan başından.

Bu fələk çox insan əkib biçmişdir,
Dərd çəkmək, qəm yemək faydasız işdir.
Ey saqi, durma, tez mənə badə ver!
Mey içim, olanlar olub keçmişdir.

İnsan kəlləsindən kasalar quran,
Qədəhlər yaradıb naxışlar vuran
Mənim vücudumdan kasa yaratdı
Onu məhəbbətlə doldurdu hər an.

Çöldən külək kimi, çaydan sel kimi
Gördüm bu gün yenə keçən ömrümü,
Qayıtmayan günün, gəlməmiş günün
Dərdilə inləməz qəlbimin simi.

Əcəlin ovçusu tor quran zaman
Tutduğu ovuna ad qoydu: insan.
Dünyada nə yaxşı – yaman iş görsə,
İnsanın boynuna yükləyir haman.

Basqın eləməmiş sənə qəm – kədər
Əmr elə, gül rəngli şərab versinlər.
Qızıl deyilsən ki, ey qafil, səni
Basdırsın, yenə də çıxarsın bəşər.

Xəbərin varmıdır, ağarınca dan,
Nə üçün xoruzlar qaldırır fəğan?
Deyirlər: ömründən keçən gecəni,
Dur, seyr et səhərin saf aynasından.



Fələyin altında daim möhkəm ol,
Şərab iç bu odlu dünyada bol – bol.
Zənn et ki, torpağın qucağındasan,
Budur əvvəl – axır gedəcəyin yol.

Ey fələk, zalımlıq ədavətindir,
Aləmi dağıtmaq bir adətindir.
Ey torpaq, bağrını söksək, dağıtsaq,
Daş – qaşlar çıxar ki, ləyaqətindir.

Yaşasan üç yüz il, beş yüz il, min il
Bu köhnə dünyadan gedəcəksən, bil.
İstər dilənçi ol, istərsə şah ol,
Sonda qiymət birdir, iki cür deyil.

Sən könül qırmağı eyləsən adət,
İnsan  incitməyi bilsən səadət,
Ağlın matəmində otur, ey nadan!
Bil ki, əksik deyil səndən rəzalət.

Qoyma qucaqlasın qəm – kədər səni,
Burax bir tərəfə dərdi, qüssəni.
Üstünə çəkməmiş ac torpaq hasar
Seyr et axar suyu, gülü, süsəni.

O qəsr ki, göyə çiyin vururdu,
Şahlar dərgahında boyun bururdu,
Gördüm eyvanına qonmuş bir qumru,
Daima oxuyur: ku –ku – ku – ku – ku[1].

Ey gül, bənzəyirsən zərif yanağa,
Ey mey, bənzəyirsən incə dodağa,
Ey tale, özünü dost göstərərək,

[1] Ku – hanı, hanı?

Çalışıb salırsan məni ayağa.

Fələk ürəyimə söylədi pünhan:
Nə görsə qədərdən – qəzadan insan
Məndən bilir, ancaq mənim qüdrətim
Olsaydı gəzməzdim belə sərgərdan.
Bir ağıllı insan gördüm röyada,
Söylədi: - Yuxudan gəlməz bir fayda.
Yoldaşdır ölümlə yuxu çox zaman,
Qəbirdə yatarsan qoca dünyada.

Məzhəb – din düşünür bir yığın insan,
Bir yığın də «şəklə» «yəqində» heyran.
«Qafillər, yol nə o, nə budur» - deyə
Pusqudan qışqırır biri  nagahan.

Könül, rast gəlməsən tikənə, xara,
Yetişə bilməzsən gül üzlü yara.
Yüz parça olmasa darağın bağrı
Heç əli çatarmı ipək saçlara!..

Gördüm ki, bazarda bir çömləkçi var,
Bir parça palçığı döyüb ayaqlar.
Palçıq deyir: - Mən də sənin kimiydim,
Gəl məni incidib etmə bunca xar.

Bir tayfa aldanıb uydu qürurə,
Bir tayfa vuruldu cənnətə, hurə.
Pərdələr qalxınca sənin kuyundan,
Uzaq düşdükləri çıxar zühurə.

Əzəlin sirrini bilmərik sən, mən.
Bir şey dərk etmərik bu gizli sirrdən,
Pərdə arxasında gedir söhbətlər,



Sən, mən sağ qalmarıq pərdə qalxırkən.

Nə kilsə əhliyəm, nə müsəlmanam,
Haqq yaxşı bilir ki, nə torpaqdanam.
Bir kafir dərvişəm, çirkin fahişə,
Cənnətsiz, dünyasız, dinsiz insanam.

Qurursan yolumun üstə min tələ,
Deyirsən, tərpənsən, keçərsən ələ.
Hər şey hökmündəsə, neçün günahkar
Edirsən, salırsan məni əngələ?!

Ey çömləkçi, əgər ağlın, huşun var,
İnsan palçığını bunca etmə xar;
Keyxosrov şahındır, Fridunundur
Qəlibə qoyduğun əllər, barmaqlar.

Deyirlər var cənnət, var huri, Kövsər.
Axacaq çay kimi şərab, süd, şəkər.
Bunun sağlığına qədəh ver, saqi!
Yüz min nisyə şeyə bircə nağd deyər.

Nə qədər canında vardır qüvvətin,
Azadlıq yolunda mətin ol, mətin!
Rüstəm düşmən olsa, Hatəm dost sənə
Olmasın onlardan qorxun, minnətin.

Ömrün artsın deyə, görüncə bardaq,
Dərhal dodağına dayadım dodaq.
Bardaq pıçıldadı mənə: - şərab iç!
Dünyaya bir dəfə gəlirsən ancaq.

Ey Xəyyam, sərxoşsan əgər şərabdan,
Yanında oturub gül üzlü canan,

İndi ki, dünyanın sonu yoxluqdur
Xoş keçin var ikən, elə bil yoxsan.

Bənövşə geyincə bir mavi paltar,
Gülün yaxasını açınca rüzgar
Ağıllı, bir gümüş bədənli qızla,
Mey içər, qədəhi bir daşa çarpar.

Mey xoşdur Kavusun səltənətindən,
Tusdan, Qubad şahın məmləkətindən,
Səhər bir aşiqin çəkdiyi nalə
Xoşdur min zahidin ibadətindən.

Ey saqi, onlar ki köçdülər qabaq,
Yatıblar, onları örtübdür torpaq.
Şərab iç, düz sözü gəl eşit məndən –
Hər nə söyləmişlər küləkdir ancaq.

Nə olar rahatlıq üzünü görsək,
Ya bu uzun yolun sonuna irsək.
Yüz min il keçincə torpaqdan, ey kaş!
Bir yaşıl ot kimi yenə göyərsək.

Səni səadətə aparan ağıl,
Gündə xitab edir, söyləyir: ayıl!
Ot kimi biçildin, bitməyəcəksən
Ömrün hər anından istifadə qıl.

Qoy olsun əlimdə üzüm badəsi,
Başımda sevimli dilbər həvəsi.
Deyirlər ki, tanrı tövbə vəd etmiş,
Qoy özünə qalsın onun tövbəsi.

Saqi, lalə rəngli mey gətir, aman,



Axıt sürahinin boğazından qan.
Mənim dostlarımın içində bu gün
Badədən təmiz bir məhrəm yox, inan.

Yaşardı gözləri sıx bulutların,
Mey iç, seyrinə çıx gülün, gülzarın.
Torpağından bitən bu otlar, sabah
Seyrəngahı olar çox insanların.

O saraylarda ki, mey içmiş Bəhram,
Orda ceyranlara şirlər olmuş ram.
Kəməndlə gur tutan Bəhram gör indi
Gorda yatıb necə olmuşdur aram.

Nə soyuqdur, nə də isti bir andır
Bulut gül üzünü yuyan zamandır.
Bülbül qızıl gülə pıçıldayır ki,
Fürsəti qaçırma, mey iç, amandır.

Bu köhnə saray ki, adıdır aləm,
Gecəyə, gündüzə çapardır hər dəm.
Burda şahlıq edib məzara girmiş
Yüz minlərlə Bəhram yüz minlərlə Cəm.

Ey gözəl, dur bizim xətrimizçün gəl,
Olsun müşkülümüz cəmalınla həll!
Qədəh qayrılmamış torpağımızdan
Dolandır qədəhi məclisdə əl – əl.

Bir nəfəs yol vardır küfrdən dinə,
Bir nəfəs yol vardır şəkdən yəqinə,
Ömrünün hasili bu bir nəfəsdir,
Bu əziz nəfəsi xoş keçir yenə.

Əlimdə olsaydı əgər iqtidar,
Bu köhnə fələki kökündən yıxar.
Təzədən elə bir fələk qurardım
Ki, hamı yaşardı azad, bəxtiyar.

Dünya – ömrümüzdən keçən bir andır,
Ceyhun – gözümüzdən axan neysandır.
Cəhənnəm – boş əmək qığılcımıdır,
Cənnətsə xoş keçən rahat zamandır.

Onlar ki, oldular ağıl dəryası,
Saçdılar ellərə ürfan ziyası,
Qaranlıq gecədən baş çıxarmadan
Bir əfsanə dedi, çatdı röyası.

Ətrim var, sərv tək ucadır başım,
Bir güləm, lalələr olub yoldaşım.
Bilinməz torpağın şadlıq evində
Neçin bəzəmişdir məni nəqqaşım.

Bu kuzə mənim tək aşiqi – zarmış,
Yarın tellərini öpüb oxşarmış,
Boynunda gördüyün qulpu bir əlmiş
Cananın boynunu qucaqlayarmış.

Gül dedi: - Bu qədər gözəlliklə mən
Nə dərdlər çəkirəm gülab çəkəndən.
Bülbül dilə gəlib söylədi gülə:
İllərcə ağlayır bir dəfə gülən.

Yaradan dünyanı neçin yaratdı!
Sonra dəyişməyə neçin əl atdı.
Əgər gözəldisə məhvi nə layiq?
Çirkinsə nə üçün qüsura batdı.



Gözəl bir dilbərlə oturub dünən
Bir bulaq başında mey içirdim mən;
Elə bir çıxırdı səhər günəşi
Qarşıma qoyduğum billur qədəhdən.

Nə yazıq, ömrümüz getdi tufana,
Döndü çox ciyərlər əcəldən qana.
O dünyadan dönüb gələn olmadı;
Bilək neyləyirlər orda insana.

Yerləri, göyləri yaradan ancaq
Vurdu bizim qəmli sinəmizə dağ.
Yaqut dodaqları, ipək saçları
Çəkdi yer altına, eylədi torpaq.

Əcəlin çənginə düşüncə həmən
Ömrümün ağacı qopar kökündən,
Onda torpağımdan qədəh düzəlsə
Şərabla dolunca diriləröm mən.

Mənəvi aləmin baş səsidir eşq,
Gəncliyin ən gözəl nəğməsidir eşq,
Ey eşq aləmindən xəbərsiz olan,
Anla ki, həyatın nəşəsidir eşq.

Könlüm heç bilikdən olmadı məhrum,
Bir çox sirrlər mənə oldular məfhum.
Yaşadım dünyada yetmiş iki il
Yenə heç nə mənə olmadı məlum.

Bu gecə batmanlıq qədəhə keçdim,
Doymaqçün ən böyük qədəhlə içdim.
Ağlımı, dinimi boşayaraq mən
Meynənin qızını nişanlı seçdim.

Səhərdir, gəl içək gül rəngli badə,
Bu adi şöhrəti gəl verək badə.
Yarın tellərini öpüb saz çalaq,
Uzaq əməllərdən qaçaq dünyadə.

Tövbə rəvamıdır mey olan yerdə,
Onu izləyirlər tərk edənlər də.
Tövbənin yerimi çiçəklər açıb
Bülbül şirin nəğmə oxuyan yerdə?

Kimin bir çörəklik buğdası vardır,
Başını çəkməyə yuvası vardır,
Nə ağadır, nə də kimsəyə nökər;
Şad olsun, zənn etsin dünyası vardır.

İndi ki, hər şadlıq getmişdir badə,
Bir yaxşı dost qalıb o da ki, badə.
Buraxma sevinclə qədəhi əldən,
Köməyin bir odur sənin dünyadə.

Açılmaz heç kəsə əsrar pərdəsi,
Çatmaz boş göylərə kimsənin səsi.
Torpağın altından başqa mənzil yox,
Uzundur dünyanın bu əfsanəsi.

Bu fələk ki, bizi hərlədir hər an,
Seçilməz sehrbaz fanuslarından.
Günəş çırağıdır, dünya fənəri,
Bizsə şəkil kimi içində heyran.

Ağıllı insançün dolanmaz fələk,
Birdir, göyü yeddi, ya səkkiz bilək.
Ya çöldə qurd yesin, ya da qarışqa,



Madamki ölüm var, boşdur hər dilək.

Başımda olsa da məstlik havası
Şərab ver, şərabdır ruhun qidası.
Dünya əfsanədir, ovcuma mey qoy!
Ömür bir küləkdir, yoxdur vəfası.

Bir balıq ördəklə qovrulan zaman
Dedi: - Ümid varmı bir də bu arxdan
Çəkilmiş su gəlsin, ördək söylədi:
- Biz yanandan sonra qoy qopsun tufan.

Yaz bulutlarından yuyunur çiçək,
Yenidən olmuşdur dünya sevincək!
Gül üzlü dilbərlə mey iç çəməndə,
Ölən insanların yadilə kef çək.

Ömrümdə heç ayıq olmamışam mən,
Qədir gecəsi də sərxoşam meydən.
Dodağımda qədəh, küplə döş – döşə
Yatıb qalacağam yerdə sübhəcən.

Mənə həyat verən sənsən, neyləyim,
İpimi əyirən sənsən, neyləyim,
Yaxşılıq, yamanlıq nə gəlsə məndən
Yazıb rəva görən sənsən, neyləyim.

Qorxma bu cahanın hadisatından,
Çəkir hadisələr dünyada bir an.
Ömrü qənimət bil, keçmişdən qorxma!
Çəkinmə gələcək günçün heç zaman.

Bəs deyilmi bunca xalqı incitmək,
Yazıq insanların ətini didmək,

Tutaq ki, sənindir bütün bu dünya;
Axırın nə olar – fənayə getmək.

Maya olmasa da ağıllıya zər
Yoxsulçün bu dünya zindana bənzər!
Əliboş bənövşə bükmüş boynunu,
Qızılgül qızılla belə gülümsər.

Fələk əl çəkməyir mənə cəfadan,
Edir alçaqlara lütfünü dövran.
Odur qanla dolmuş sürahi sinəm,
Piyalə gözümsə daima giryan.

Bilmirəm yaradan nə verib mənə,
Cənnətə gedərəm, ya cəhənnəmə.
Burda saz, mey, gözəl, çəmən olsa nəqd.
O nisyə cənnəti verərəm sənə.

Bu ucsuz, bucaqsız dairədə sən
İki cür insanı xoşbəxt görərsən.
Bir qismi hər şeyi bilən, o biri
Xəbərsiz yaşayan dünya işindən.

Bü dönən fələkdə pis dövrana bax,
Dostlar bir-bir çəkdi dünyadan ayaq.
Şən ol, az ömründə dünənə baxma,
Sabahı düşünmə, halı gör ancaq!

Saz çalıb, kədərdən qoymayaq bir iz,
Mey içək, şad olsun bir az qəlbimiz.
Sataq səccadəni bir qədəh meyə,
Dinin şüşəsini gəl sındıraq biz.

Zəmanə qəmindən məhzun olub sən



Nə qədər dərd çəkib yaş tökəcəksən.
Bu qoca dünyadan çıxıb getməmiş
Şərab iç, xoş keçin, qalma kefindən.

İki gündə insan tapsa bir çörək,
İçməyə bir az su, nə üçün gərək
Özü kimi biri ağası olsun,
Yaxud bir nəfərə işləsin qul tək.

Keçir külək kimi ömrün karvanı,
Qənimət bilməli zövqü səfanı.
Saqi, gəl sabahı düşünmə, mey ver,
Keçir gecə, gedir işrət zamanı.

Çiçəkçün baharın ruzgarı xoşdur,
Çəməndə gözəlin didarı xoşdur,
Dünəndən nə qədər desən xoş deyil,
Bu günün sövdası, dildarı xoşdur.

Mey içmək, şad olmaq ayinim mənim,
Bilməməkdir küfrü din, dinim mənim,
Dünya gəlininə dedim: - Kəbinin?
Dedi: - Şad könlündür kəbinim mənim.

Pəhrizkarlar deyir öləndə insan
Yatdığı kimi də qalxar torpaqdan.
Mən yardan, şərabdan ayrılmıram ki,
Onlarla bir olum dirilən zaman.

Yetməzmi bu məscid, bu oruc, namaz!
Yollan meyxanaya, şərab iç bir az.
Bir gün torpağından kuzə qayrılar,
Ey Xəyyam, bu ömür əbədi qalmaz.

Bir şüşə mey olsa, bir divan[1] olsa.
Bir də məlahətli qəzəlxan olsa.
Mənə xarabalıq xoşdur saraydan –
Yanımda mehriban bir canan olsa.

Cam olsun, mey olsun, saqi olsun, bağ,
Bunlar mənim, nisyə cənnət sənin, bax.
Cənnət – cəhənnəmin bəhsinə uyma,
Cənnət - cəhənnəmə kim basıb ayaq.

Çalış bir yeməkçün, bir də paltarçün,
Bunlar kifayətdir, düşünmə varçün.
Dəyərlə ömrünü fənaya vermə
Beş günlük dünyada boş arzularçün.
Gətir yaqut rəngli şərabi sadə,
Məhrəmdir azadlıq sevənə badə.
Şərab ver, bilirsən, tez əsib keçən
Küləyə bənzəyir ömür dünyadə.

Gəl keçən günləri yadına salma,
Sabahın hayına indidən qalma,
Burax keçmişləri, gələcəkləri,
Xoş keçir halını, qüssəyə dalma.

Köhnə şərab içib məstəmsə məstəm,
Kafir, atəşpərəst, ya bütpərəstəm.
Barəmdə hərə bir fikir söyləyir,
Aydındır öz işim, mənə hər kəsdən.

Biz qəflət toruna düşmüş bir quşuq,
Dünyanın dərdindən cana doymuşuq.
Nə gəlmək arzumuz olub, nə getmək.
Bu damsız, qapısız yerə uymuşuq.

[1] Divan – kitab.



Çirkinə, gözələ baxmaz həqiqət,
Birdir aşiqlərçün cəhənnəm, cənnət.
Dərd əhli palaza, ətləzə baxmaz,
Yastıqla kərpici seçməz məhəbbət.

Ey yar, xərabatda eyləyək niyaz,
Lazım deyil bizə ibadət, namaz
Sənsən qiyamətim, həm də bu dünyam,
İstər yandır məni, istər eylə raz.

Sən hər müəmmanı duymazsan, könül,
Nüktəli sözləri anlamaq müşkül.
Yağut rəngli meydən burda cənnət qur,
Cənnətə yetişmək müəyyən deyil.

Ruhun ayrılanda bu şirin candan,
Ədəm pərdəsində olarsan pünhan.
Şərab iç, xoş keçin, bəlli deyildir
Hardan gəlib, hara gedəcək insan.

Olsan bu dünyada şəhvət düşkünü,
Parlamaz ömrünün, bəxtinin günü,
Düşün neyləyirsən, kimsən, nəçisən,
Hara gedəcəksən ömrün son günü.

İndi ki, meydanda yoxdur həqiqət,
Vermə şübhələrlə ömrünə zəhmət.
Bixəbər sərxoşla, bixəbər ayıq
Birdir, eylə daim eyş ilə işrət.

Ey dost, olan işçün çəkmə qəm, kədər,
Səni incitməsin boş düşüncələr.
Xoş keçin dünyada, sevinclə ömr et!
Çünki getməyindən tutmazsan xəbər.

Ey yalan satana aldanan insan,
Beş günlük ömürçün çox çarpışırsan.
Deyirsən ki, ölsəm gedərəm hara,
Şərabı ver, hara gedirsən yollan.

Dünyanı gözündə bəzəsələr də
Meyl edib ağıllı qalmaz bu yerdə.
Sənin tək çoxları gəlib getmişdir,
Götür qismətini, gəlməzsən bir də.

Bu səhralar dolur, boşalır hər an,
Baxdıqca bu çölə oluram heyran.
Çünki bilinməyir hardan gəlibdir,
Haraya yollanır bu uzun karvan.

Mey iç silinməmiş adın cahandan,
Mey qəmi, qüssəni çıxarır candan.
Elə bir gözəlin saçını tel – tel,
Tel – tel etməyincə səni bu dövran.

Bu fani dünyada çəkmə çox möhnət,
Xoş keçin, daima qur eyşü işrət,
Əgər bu dünyada vəfa olsaydı
Sənə başqasından çatmazdı növbət.

Bizə qəsd eləyir bu zalım fələk,
Gəl çıxaq çəmənə, al şərab içək.
Çox çəkməz, göyərər torpağımızdan
Yaşıl çəmənlərdə əlvan gül – çiçək.

Göydə Pərvin adlı bir öküz yaşar,
Yer altında da bir başqa öküz var.
Bu iki öküzün arasındasa



Görər eşşəkləri aqil adamlar.

Çox gəzdik çölləri, çəmənlikləri,
Gəzdik bu dünyada bütün hər yeri.
Hələ eşitmədik bir nəfər insan
Bu heçlik yolundan qayıtsın geri.

Qızıla, gümüşə uyma dünyada,
Vermə pul yığmaqla ömrünü bada.
Nəfəsin sönməmiş dostlarınla ye,
Öldün düşmən yeyər, bunu sal yada.

Bu qoca dünyadan gedincə sən, mən
Kərpiclə örtülər qəbrimiz həmən.
Başqa qəbirlərçün torpağımızdan
Kərpic düzələcək, bunu düşün sən.

Görürəm çox canlar çəkmişdir torpaq,
Çoxu yer altını eyləmiş yataq.
Heçlik səhrasına baxıb görürəm
Gedən çox, qayıdıb gələn yox ancaq.

Palçığı yoğuran bu kuzəgərlər
Ağılla, fikirlə etsinlər nəzər.
İnsan bədənidir bu palçıq, neçün
Döyüb incidirlər onu bu qədər.

Məscidə gəlsək də biz bir niyazçün,
Lakin gəlməmişdik bura namazçün.
Canamaz oğurladıq burdan, köhnəldi.
Gəlmişik biz yeni bir canamazçün.

O gün ki əlimə alıram şərab,
Elə bil, şadlıqdan oluram xərab.

Təbim oda dönür, sözlərim suya!
Yüz möcüz önümdə eyləməyir tab.

Torpağım qəlibə tökülən zaman
Yaranmışdır ondan min fitnə, min qan.
Bundan yaxşı ola bilmərəm, çünki
Belə çıxarıldım mən qalıbımdan.

Rindlərə xidmət et gəlsə əlindən,
Orucu, namazı yıx təməlindən.
Sən Ömər Xəyyamdan eşit düz sözü
Mey iç, inciməsin kimsə dilindən.

Dostum, gəl sabahçün çəkməyək möhnət
Bu bir anlıq ömrü bilək qənimət.
Sabah qəbrə girrik  yeddi min illik
Ölüyə bərabər olarıq, əlbət.

Dünyadan tamahı azalt, şən yaşa!
Mey iç, bir gözəlin saçını oxşa.
Əl çək zəmanədə yaxşı – yamandan.
Bu beş günlük ömrü tez gələr başa.

Bu ucsuz – bucaqsız göyün altında
Şən keçin, dövranda az deyil cəfa;
Sənə növbət çatdı heç ah eyləmə,
Hamı gedəcəkdir çünki torpağa.

Orucluqda oruc yeyirdim əgər.
Sanma ki, yeyirdim onu bixəbər.
Oruc əzabından günüm gecəydi,
Obaşdan gəlirdi gözümə səhər.

Bizə deyirlər ki, mey içən insan



Cəhənnəmlik olur, bu, boş bir yalan.
Cəhənnəmlik olsa aşiqlər, məstlər
Cənnət boş görünər sənə ovcundan.

Məscidi, namazı, orucu burax,
Dilənçi olsan da mey iç, kefə bax.
Ey Xəyyam, öldünmü, bil, torpağından
Gah qədəh düzələr, gah kuzə, bardaq.

Dostlar, şərab ilə bəsləyin məni,
Döndərin yaquta sarı çöhrəni.
Mən ölsəm qırmızı şərabla yuyun,
Meynə tabutunda aparın məni.

Qəlbin məhəbbətlə çırpınsın gərək,
Çalış inciməsin səndən bir ürək.
Dəyər yüz kəbəyə bir könül almaq!
Kəbəyə getməkçin bəsləmə dilək.

Ey dost, gəl özünü qüssəyə salma,
Bu köhnə dünyanın qəminə dalma,
Olmayan gəlməmiş, olan keçmişdir,
Olub – olmayanın hayına qalma.

Satmışıq tacları biz heç bir şeyə,
İpək sarıqları satmışıq neyə.
Hiylə xəbərçisi təsbehi də biz
Satarıq bir qədəh gül rəngli meyə.

Yaz gəlib, bitincə xəzanın çağı
Əziz ömrümüzün solur yarpağı.
Şərab iç, qəm yemə, - filosof  demiş:
 - Tiryəkdir mey, cahan qəmləri ağı.

Səhər zamanıdır qalx, ey sərvnaz!
Mey içək, çal incə qəlb ovundan saz.
Getməyənlər burda qalmaz çox zaman
Gedənlər bir daha geri qayıtmaz!

Çiçəklər açanda, bülbül ötəndə
Ay üzlü dilbərlə yaşıl çəməndə
Mey içmək arzusu olmuş, var, olar
Ömrüm düşməyincə mənim kəməndə.

Ey könül, elə bil sənindir cahan!
Sən şadlıq bağında şənsən hər zaman.
Bir gecə çəmənə düşən şeh kimi
Səhər birdən – birə yox olacaqsan.

Gözümü açınca, bu alçaq fələk
Əlimi bağladı, qurdu min kələk.
Nə yazıq, ömrümdən sayılacaqdır
Şərabsız keçinmək, yarsız keçinmək.

Olmamış işlərçün yemə qüssə, qəm.
Uzaq düşünənlər çəkər dərd – ələm.
Xoş keçin dünyada, sıxma könlünü,
Artırıb – əksiltməz ruzunu matəm.

Sevinc içindədir, ey saqi, gülzar,
Düşün, bircə həftə gülün ömrü var.
Mey iç, gül – çiçək dər, sən göz açınca
Səbzələr, çiçəklər olar tarümar.

Mənim palçığımı haq yoğuranda
Çox yaxşı bilirdi nə vardır onda.
Hökmü olmayınca günah etmərəm.
Neçün cəhənnəmin yanım odunda.



Bu uzun yollardan kim dönüb geri;
Gətirsin bizimçün düzgün xəbəri.
Bu tamah, ehtiyac yolu ağzında
Bir arzu buraxma, dönməzsən geri.

Gördüm bir kuzəçi göstərir hünər.
Torpaqdan yaradır gözəl kuzələr.
Atamın torpağı kuzəgərdəydi;
Bunu mən gördümsə, görməz bixəbər.

Bir udum mey dəyər bütün cahana,
Bir küpün kərpici dəyər min cana.
Şərablı dodağı silən bir dəsmal
Dəyər min sarığa, min teyləsana[1].
Başqadır dəyərli yaqutun kanı,
O dürrün var başqa gözəl nişanı.
Eşqi dərk eləyə bilməz hər insan,
Başqadır sevginin, eşqin dastanı.

Səhər zamanıdır, dur, ey novcavan,
Tök billur qədəhə yaqut şərabdan.
Bu fani dünyada bir anlıq ömrü
Sən çox axtararsan bil ki, bir zaman.

Dövran gərdişindən nəsibini al,
Şərab iç, şadlıq et, bilmə dərd – məlal
Laqeyddir taətə, günaha tanrı,
Bari sən aləmdə muradınca qal.

Ölüncə yoxalsın, itsin mədfənim.
Xalqa ibrət olsun bu halım mənim,
Meylə torpağımdan kərpic yoğrulsun,
Bir küpün qapağı olsun bədənim.

---

[1] Teyləsana – sarığ ucu.

Xəbərim olmadan məni yaratdı,
Dünyada gün – gündən heyrətim artdı.
Gəlişin, gedişin səbəbini mən
Bilmədən, ömrümü heçliyə atdı.

Var dərdi, yox dərdi çəkməyim əbəs,
Gələcək zamanı bilərmi bir kəs?
Qədəhi doldur ki, bəlli deyildir,
Geri dönəcəkmi çəkdiyim nəfəs.

Deyirlər məhşərdə hurü cənnət var
Gözəl bulaqlardan bal – şərab axar.
Demək gözəl sevmək, mey içmək xoşdur,
Madamki orda da olacaq bunlar.

Gəl bircə arzuma, xacə, et əməl,
Törətmə yolumun üstündə əngəl.
Mənim düz işimi əyri görürsən,
Get, öz gözlərini düzəlt sən əvvəl.

Deyirlər cənnətin var bir nəşəsi.
Məncə, daha xoşdur üzüm şirəsi.
Nəqdi al, nisyənin ardınca düşmə,
Təbilin uzaqdan xoş gələr səsi.

Mahmudun şadlığı badədir, badə.
Davudun nəğməsi sazdır dünyadə.
Burax gələcəyi, anma keçmişi,
Bu günkü ömrünü keçir səfadə.

Olur ayıqlıqda şadlığım pünhan.
Gəlir sərxoşluqdan ağlıma nöqsan.
Ayıqlıqla məstlik arasındakı



Hal əsl həyatdır, ona can qurban.

Madamki aləmdə düşürsən dərdə,
Vəfasız dünyada ölüm var bir də.
Bəxtiyar odur ki, yaşadı bir an,
Ya heç doğulmadı bu fani yerdə.

Tutaq, hər arzunu götürdün, sonu?
Həyat kitabını bitirdin, sonu?
Elə bil yaşadın yüz il, ömrünü
İkinci yüz ilə yetirdin, sonu?

Səhərin mehindən açılıb güllər,
Gülün sevincilə ötür bülbüllər.
Mey için, dünyada çox qızılgülü
Bitirmiş, yenə də soldurmuş illər.

Şad ol, ömrü vurma kədərlə başa,
Bu zalım dünyada sən adil yaşa.
İndi ki, dünyanın sonu yoxluqdur
Zənn et yoxsan, ömrü azad vur başa.

Qocaykən eşqinə bağladım əməl,
Yaşadıqca meydən götürmərəm əl.
Bu şərab satana edirəm heyrət,
O nə alacaqdır şərabdan gözəl?

Tövbə eləyənin səbatı olmaz,
Badə kimi abi – həyatı olmaz,
Orucluq ayında tövbə edərsə
Namazın əlindən nicatı olmaz.

Səni kim bu gecə eylədi məxmur,
Pərdədən səhrayə eylədin zühur.

Kim sənə söylədi əsən külək tək
Od tutub yananı bir də tutuşdur?

Mey içib gözələ vurulsa insan,
Yaxşıdır riyakar zahid olmaqdan.
Cəhənnəmlik olsa məstlər, aşiqlər
Cənnətdə bir nəfər tapılmaz inan.

Hər yetən dərdindən olmaz xəbərdar
Sözü qısa deyib etmərəm təkrar.
Elə bir haldayam, təsvir olunmaz
Bir sirrim vardır ki, edilməz izhar.

Şərab olsa yerim qoy olsun xərab,
Nə ümid, nə rəhmət, nə qorxu, əzab!
Torpaqdan, küləkdən, oddan, sudan mən
Azadam, canımdır, qəlbimdir şərab.

Bir müddət bu dünya oldu mənzilim,
Yaşadım, dərd oldu yalnız hasilim,
Getdim, ürəyimdə qaldı min həsrət,
Heyhat, həll olmadı bircə müşkilim.

Vəfasız dünyada gəzdim çox zaman,
Axtardım hər yeri, gəzdim firavan,
Nə ay üzün kimi gözəl ay gördüm,
Nə də boyun kimi sərvi – xuraman.

Altmış ildən artıq ömr eyləməzsən,
Altmış il ömr etdin, qorxma əcəldən.
Mey iç, hara getsən sən sərxoş yeri,
Buraxma kasəni, kuzəni əldən.

İnsan eşq yolunda olmalıdır pak,



Əcəl pəncəsində olarıq həlak.
Ey gözəl çöhrəli saqi, boş durma,
Su ver, torpaq edər bizi bu əflak.

Məcazi bir eşqin olmaz rövnəqi
Andırar bir sönmüş odu – ocağı.
Aşiqin olmasın gərək il boyu
Aramı, qərarı, yeri, yatağı…

Ey insan, bu səndə olan ehtiras
İnan ki, yırtıcı köpəkdə olmaz.
Dovşanda, tülküdə, qurdda, pələngdə
Nə xislət vardısa olub sənə xas.

Başdan təkəbbürü çıxarır badə,
Həll edir hər çətin işi dünyadə.
Mey içsəydi iblis iki min səcdə
Edərdi adəmə, olardı sadə.

Nə yazıq ki, könlüm tapmadı dərman,
Can dodağa gəldi tapmadı canan.
Dünyadan xəbərsiz keçdi həyatım,
Eşqin əfsanəsi qaldı hər zaman.

Sevgilim, həyatda şöhrətsiz yaşa,
Mey içək, gəl ömrü xoş vuraq başa.
Sataq səccadəni bir qədəh meyə,
Çırpaq zahidliyi, bərabər, daşa.

Məndən Mustafaya yetirin salam:
Hörmətlə baş əyin, söyləyin: - Xəyyam
Soruşur: - Nədəndir, şəriətində
Turş ayran halaldır, şirin mey haram?

Məndən də Xəyyamə yetirin salam
Ona söyləyin ki, xamsan, ey Xəyyam!
Nə vaxt dedim şərab içməsin arif?
Mən meyi xamlara etmişəm haram.

Bir əlimdə qədəh, birində quran,
Gah haram insanam, gah halal insan.
Firuzə qübbənin ətəyində mən
Nə mütləq kafirəm, nə də müsəlman.

Əcəlin oxunu saxlamaz süpər,
Heçdir bu qızıllar, heçdir gümüşlər.
Dünyada yenə də yaxşılıq qalar
Həqiqət gözüylə eyləsən nəzər.

Ömrün əsasını istəsən möhkəm,
Bilmək istəməsən bu dünyada qəm,
Əl çəkmə gül rəngli gözəl badədən,
Ömrünün ləzzəti qoy artsın hər dəm.

Şadlıq gətirməyən şeylərdən uzaq.
Mey gözəl əlindən dadlıdır ancaq…
Dəyər bu dünyanın bütün varına,
Din bilməyib, sərxoş qələndər olmaq.

O gün ki, özümdən oldum biganə,
Varlığımdan qaldı yalnız əfsanə.
Mənim torpağımdan qədəh düzəlsə
Olsun o qədəhin yeri meyxanə.

Çoxdandır şərabı mədh edirəm mən.
Ayrıla bilmirəm camdan, qədəhdən.
Zahida, ustadın sənin əql isə
O ustad şagirdim olubdur həmən.



Nədir bu dünyanın malına həsrət,
Dünyada daimi deyildir xilqət.
Birovuzdur ömrün, nəfəsin sənin,
Birovuzla, birovuz olmalı əlbət.

Düşün, keçmədədir nazənin ömür,
Bax gör axıb gedir nə həzin ömür!
Bir xoş gün görmədim həyatımda mən,
Yazıq, dərdlə keçdi bu məhzun ömür.

Bu kuzə naxışdır, bir də xəyaldır,
Ariflər bilər ki, bu gecə haldır.
Ömrünü xoş keçir xəyala getmə!
Dünyanın işini bilmək məhaldır.

Dünya ki, fanidir, fəndlə dünyada
Mey içib olaram zövqü səfada.
Tanrı günahımdan keçər deyirlər
Keçməz, istəmirəm keçmiş olsa da.

Deyirlər ən yüksək kəlamdır quran.
Lakin az tapılır onu oxuyan.
Piyalədə aydın bir yazı var ki,
Oxunur hər yerdə, o hər bir zaman.

Göy tökür bulutdan yerə nəstərən.
Dolmuş çiçəklərə elə bil çəmən.
Süsən kimi cama töksək gülgun mey
Bənövşə bulutdan yağar yasəmən.

İstər bütxanası, istər kəbəsi,
İstərsə zənglərin inləyən səsi,
İstər məscid olsun, istər kəlisa, -
Hamı köləliyin bir nişanəsi.

İlk günlər göylərdən axtardım qələm,
Axtardım lövh, mən həm cənnət, cəhənnəm.
Sonra müəllimim anlatdı mənə:
Səndədir lövh, qələm, cənnət, cəhənnəm.

Dur, piyalə gəzdir, yetər boş söhbət;
Bu gün püstə ağzın mənədir qismət.
Gül yanağın kimi gülgun şərab ver,
Tövbəmdir saçın tək pozulan dəmət.

Mey qəmi dağıdır, kefi edir saz.
Meydə olan ətir çiçəkdə olmaz.
Dünyada kədəri dağıdacaq şey
Yaqut rəngli meydir, ipək telli saz.

Açılınca mavi, xoş üzlü səhər
Əlimizdə olsun gərək qədəhlər.
Deyirlər ki, guya şərab acıdır:
Yəqin şərab haqdır acısa əgər.

Ömrün qəmim qədər çox olsun, ey yar,
Bu gün mənə qarşı oldun lütfkar.
Yaxşılığı atıb dəryaya, dedin:
Balıq bilməsə də xalıq anlayar.

Cəhənnəmdən qorxan, cənnət axtaran
Əl çəkməz məsciddən, kəlisalardan.
Allahın sirrindən olan xəbərdar
Qəlbində bu toxumu əkməz heç zaman.

Mey iç sən, möhkəm ol, ağıldan qaçma,
Cahillik eyləyib söyləmə, saçma.
İstəyirsən sənə mey halal olsun



Kimsəni incitmə, vurma, əl açma.

Fələkin cövrünə köküs gər, bərk dur,
Ancaq yaxşı adla çalış, ol məşhur.
Zahidliklə məğrur olmaqdansa sən
Üzümün suyundan məxmur ol, məxmur.

İstər kafir olsun, istər müsəlman,
Gərək məhəbbəti hiss etsin insan.
Axtarmaz nə cənnət, nə də cəhənnəm
Aşiq olub, sevən gül üzlü canan.

Dedim ki, bir də mey içmərəm, inan,
Mey meynə qanıdır, mən içmərəm qan.
Ağlımın ustadı dedi: - gerçəkmi?
Dedim: - zarafatdır, dönməm şərabdan.

Ey şərab, səadət qədəhində sən
Ağlın ayağına bağsan, düyünsən.
Kim səndən daddımı, verməzsən aman,
Ağlını ovcuna qoyarsan həmən.

Mey içib bilmərəm sərxoşluq, cəncəl.
Mən ancaq qədəhə uzadaram əl.
Sənin tək xüdpəsənd olmayım deyə
Meypərəstəm, meyə bağladım əməl.

Şərab iç, toz eylər səni bu dövran,
Düzələr piyalə, küp torpağından.
Cənnət – cəhənnəmlə məşğul olma çox,
Güvənməz onlara ağıllı insan.

Zahid, tənə vurma bizə sən müdam,
Deyilik dünyada sənin kimi xam.

Sənin istədiyin namaz təsbehdir,
Mənim sevdiyimdir canan, bir də cam.

Könlüm dedi: məndə elmə var həvəs,
Əlindən gəlirsə təlim eylə dərs.
Ona dedim: əlif. Söylədi: yetər!
Evdə adam varsa bir söz edər bəs.

Şərab piyalədə lətif bir candır,
Şüşənin cismində ruhi – rəvandır.
Ağır adamlara mey layiq deyil
Qədəhlə dostluğu xeyli zamandır.

O kimdir dünyada etməsin günah;
Günahsız bir insan yaşamaz əsla.
Mənim pisliyimə pislik edirsən.
Bəs bizim fərqimiz nədir, ay allah!

Çiçək mövsimidir, yetər şəriət,
İncə bir gözələ bağla məhəbbət.
Gül üzlü cananla yaşıl çəməndə
Mey iç, bir neçə gün etginən işrət.

Yazıq o qəlbə ki, odu yox əsla,
Bir gözəl eşqinə deyil mübtəla.
Sevgisiz, sövdasız keçirdiyin gün,
İnan ki, ən yaman gündür dünyada.

Üç günlük ömründə iç yaqut şərab,
Ömür dönməz geri, çəkmə iztirab.
Görürsən ki, dünya hey xarablaşır.
Sən də gecə – gündüz mey iç, ol xərab.

Verir qızıl gülə bulut yaraşıq,



Könlüm bu gül rəngli şəraba aşıq.
Sevgilim, badə ver, yuxuya dalma!
Hələ çəkilməyib göylərdən işıq.

Bu aləm möhnətdir, zəmanə qəmdir,
Fələk bir afətdir, cahan sitəmdir.
Baxınca dünyaya görürəm: dərdsiz
Az adam tapılar, dünya ələmdir.

Gül dedi: - Yusifəm, Misrimdir çəmən.
Ağzı qızıl dolu bir yaqutam mən.
Dedim: - Yusifliyə nə nişanən var?
Dedi: - Tanı məni al köynəyimdən.

O gün ki, vuruldum o gül camala,
Eşqim gündən – günə çatdı kamala.
Lal kimi oluram səni görəndə,
Mən susuz gəzirəm, axır şəlalə.

Xilqətin başlıca mehvəriyik biz,
Dərk etsən, bəsirət cövhəriyik biz,
Cahan dairəsi qızıl bir üzük,
Onun ən dəyərli gövhəriyik biz.

Ağıllı adamla dost ol, söhbət aç,
Namərddən uzaq ol gündə min ağac
Ağıllı zəhər də versə sənə, iç!
Namərdin balından, şərbətindən qaç!

Gördüm ki, bir qoca yatmışdır sərxoş,
Şüuru olmuşdur şək – şübhədən boş.
Mey içmiş, məst olmuş, yatmış sərsəm tək
Bu hal gəlmiş ona ibadətdən xoş.

Əcəlin əlindən qaçırtdığın an
Quru yarpaq kimi düşür budaqdan.
Torpağım xəlbirdən keçmədən əvvəl
Həyatım sevinclə keçsin bir zaman.

Gözəl bir səhərdir, qalx, oyan, saqi!
Gül rəngli şərab ver, mehriban saqi!
Vücudum eyvançün kərpic olmamış
Fürsətkən şərab ver, mənə, can saqi!

Saqisiz, şərabsız bu dövran heçdir,
Neysiz, təranəsiz keçən an heçdir.
Baxdıqca dünyaya deyirəm sənə
Bir işrət qalacaq, bu cahan heçdir.

O yaqut dodaqlı gözəl can hanı?
Ruhu rahət edən o reyhan hanı?
Mey haram olsa da müsəlmanlıqda
Sən mey iç, qəm yemə, müsəlman hanı.

Həqiqət ağacı bitməmiş yerdə,
Doğruluq tapılmır sanki bəşərdə.
Hər kəs yapışmışdır çürük budaqdan,
Zərrəcə fərq yoxdur bütün günlərdə.

A dostlar, yığışıb eylərkən ülfət,
Məni salarsız siz yada, əlbət.
Çevirin qədəhi şərab içərkən,
Mənim sağlığıma çatınca növbət.

Düşsən hər məclisə, düşsən hər elə,
İki batman şərab keçirsən ələ,
İç ki, bu dünyanı yaradan tanrı
Düşünmür nə saqqal, nə də bığ belə.



Şərab iç, şərabdır əbədi həyat,
Gəncliyə zövq verir, nəşəyə qanad.
Od kimi yaxsa da dirlik suyu tək
Yüyüb kədərləri, qurur min busat.

Dəhrin bu torpağı, dünyanın tozu
Olub gözəllərin bir zaman üzü.
Yavaş sil tozunu nazəninlərin,
Bir gözəl olmuşdur bu tozun özü.

Məni sevgisilə inlədən nigar
Olub başqa yerdə qəmə giriftar.
Dərdimə mən necə əlac eylərəm,
Bir halda ki, olub təbibim bimar.

Şadlıq köynəyimi daim yırtaraq,
Mənə qəm verirsən, ey fələk, ancaq.
Sərin küləyimi döndərib oda,
İçdiyim saf suyu edirsən torpaq.

Əhl – hal adama can qurbandır, can.
Əhlin ayağına baş qoyar insan.
Düzü, cəhənnəmi bilmək istəsən,
Naəhl söhbətidir cəhənnəm, inan.

Ey Xəyyam, bədənin çadıra bənzər,
Ruh isə sultandır, bəqadə gəzər.
Sultan duran kimi əcəl fərraşı
Başqa bir  mənzildə çadırı bəzər.

Meyxanəyə sərxoş getmişdim dünən.
Çiynində kuzə bir qoca gördüm mən.
Soruşdur ki, haqdan heç utanmırsan?
Dedi: - Sus, şərab iç, əfv etmək həqdən.

Meyə, kababadır meylim daima,
Saza, rübabadır meylim daima,
Mənim torpağımdan qədəh düzəlsə
Deyər: şərabadır meylim daima.

Ayıq ol, fitnədir işi zamanın,
Qılıncı itidir azğın dövranın.
Ağzına zəmanə paxlava qoysa
Yemə, zəhərlidir, məhv olar canın.

Könül, mübtəlayə olma mübtəla!
Sevmə seviləni, çəkərsən bəla.
Dərvişlərlə dostluq eylə, bəlkə də
Ağıllı bir dostun, aşinan ola.

Şərab deyil, ruhun səfasıdır o,
Kədərli qəlbimin dəvasıdır o.
Dolu ver xeyrabdır, şərab deyildir,
Çünki dərdli könlün şəfasıdır o.

A dostlar, görüşüb siz olunca şad,
Qəlbiniz qüssədən olunca azad,
Əlinə odlu mey alınca saqi,
Məni də xeyr ilə edərsiniz yad.

Çalış inciməsin səndən heç bir kəs,
Qəzəblə kimsəni yandırmaq əbəs!
Rahatlıq istəsən özünü incit,
Adam incidənlər rahat gün görməz.

Mey haramdır, ancaq kimə haramdır,
Qədəh yoldaşların necə adamdır?
Nə qədər içirsən, bu üç şərtlə, iç,



Şərabı içməyən bil ki, avamdır.

A dostum, şadlıqla ömrü vur başa.
Bu başsız fələkdən qorxusuz yaşa.
Otur qənaətin bir bucağında,
Çarxın oyununa eylə tamaşa.

Bir bulaq başında mey içib, zövq al.
Olmasın qəlbində küdurət, məlal.
Dəyərli ömrümüz on gündür bizim,
Üzün gülər olsun, dodaqların al.

Deyirlər mey içmə, gəlibdir şəban.
Gərək rəcəbdə də içməsin insan.
Bu aylar tanrının olsun, indi mən
İçirəm, mənimdir çünki rəməzan.

Aləm keçicidir, daim keyfə bax,
Ruhun bədəninçin çox bağıracaq.
Bu baş çanaqları kuzəgərlərin
Təpiyi altında olacaq torpaq.

Xoş keçin, qüssədən qurtarmaz insan,
Göydə ulduzlarda baş verər qərran.
Sənin bədənindən olan kərpicdən
Tikilir sarayçün, evlərçün eyvan.

Bir şüşə mey olsa, bir çay qırağı,
Bir də sevgilimin zərif dodağı.
Cənnət, cəhənnəmə uymaram əsla
Deyərəm: - Şərab ver, durma, ey saqi!

Könül ayırmayır tələdən dəni,
Gah sevir məscidi, gah da badəni.

Məsciddə xam deyil, yarla, şərabla
Meyxanada puxtə axtarın məni.

Bilməsəm də əsla nədir ibadət,
Günahkar olmağı etsəm də adət,
Ümid kəsməmişəm kəramətindən;
Çünki doğruluğu etmişəm sənət.

Hər varlıq, hər yoxluq bəllidir mənə.
Bilirəm zil nədir, bilirəm bəm nə.
Əgər sərxoşluqdan yüksək şey bilsəm
Qoy cəhl deyilsin Xəyyam, elminə!

Pərgara bənzərik səninlə, ey yar!
Başımız ikidir, bir canımız var.
Əvvəl dairə tək nöqtələr keçib,
Sonra birləşirik, ey gözəl nigar.

Bir zaman bu kasa yaranıb gözəl,
Sınıb, indi örtüb üstünü xəzəl.
Yolçu, həqarətlə tapdayıb keçmə,
İnsan kəlləsiymiş çünki bu əvvəl.

Bir gün üzüm suyu içməsəm əgər,
Dəhrin padzəhrini sanaram zəhər.
Qəm – qüssə zəhərdir, meydir dərmanı,
Qorxmaram zəhərdən içincə padzəhr.

Həyatından ötən hər dəqiqəni
Xoş keçir, buraxma zövqü, nəşəni
Bu vücud mayası ömrü hər necə
Keçirsən, elə də saxlayar səni.

Tikan çatar mənə yetməsə də gül,



Nur olmasa, odla dolanar könül.
Çatmasa əmmamə, xirqə, şeyxlik, mən
Xaçla, kilsə ilə ötüşərəm, bil.

Hər kəs meyxanada dolansa əgər
O salmaz yaxşıya, yamana nəzər.
Dünya və axirət yansa, dağılsa,
Sərxoşa arpaca eyləməz əsər.

Tordan qaçdı ömür balığım həmən,
Ömrü sərsəm kimi boş keçirdim mən.
Hər anı dünyaya dəyən həyatım
Nə yazıq ki, müftə getdi əlimdən.

Ey fələk, halımı eyləmədin saz,
Bir gün eşitmədim səndən xoş avaz.
Nə deyim sənin tək kəcrəftara mən,
Verdiyin bir sevinc yüz dərdsiz olmaz.

Ey Xəyyam, günahçün nədir bu matəm?
Dərdin azalarmı yesən qüssə – qəm.
Günah eyləməsən əfv olunmazsan
Əfv günahçün gəlib, çəkmə dərd, ələm.

Günəş kəməndini atıbdır dama,
Gündüz şərabını doldurub cama.
Səhər azançısı deyir şərab iç!
Şərab iç sədası düşüb hər yana.

Ağılsız adamla mey içmə, zinhar.
Çirkin işlərilə qəlbini qırar.
Gecə sərxoşluqda salar gurultu,
Səhər üzrü səni incidib yorar.

Qalx, qalx yatağından, qalx, oyan, saqi,
Şərab ver, şərab ver, mehriban saqi!
Başımın kasası kuzə olmamış
Mey tök kasalara bardaqdan, saqi!

Özündən dərs alar işdən xəbərdar.
Bilər nə gətirmiş, nə də aparar.
Deyirsən ölmək var şərab içmirəm,
İçsən, içməsən də, şəksiz, ölüm var.

Necə ki, rəngindən dönməz yasəmən,
Qədəh də öyləcə ayrılmaz meydən.
Xeyr, səhv elədim, badə bir sudur,
Xislətdə fərqi yox yanar atəşdən.

Orucluq yetişdi, iş oldu əngəl,
Şəraba, gözələ vurmaq olmaz əl.
İçilməmiş qaldı aldığım şərab,
Dəyilməmiş qaldı sevdiyim gözəl.

Qədəh, dodağını incitmə yarın,
O çox çətinliklə olmuş dildarın.
Badə ürəyinin qızıl qanilə
Öpdü dodağını incə nigarın.

Mənsəb  sahibləri – bu sərvətlilər,
Gecələr yatmayır, çəkir qəm, kədər,
Lakin şöhrətpərəst olmayanlara
Onlar həqarətlə salırlar nəzər.

Bayram gəldi, artıq şadlıq, nəşə var.
Gül üzlü saqilər al şərab paylar.
Bir yığın eşşəkdən bayram, namazla
Oruc noxtasını dartıb çıxarar.



Eybi yox, bilməsən din ya ibadət,
Ancaq xəbis olub, eyləmə qiybət.
Heç kəsi incitmə, mənə şərab ver!
Günahın boynuma, olsa qiyamət.

Fələkin başına sovur toz – torpaq.
Mey iç, bu dünyada gözəl sev ancaq.
İndi ki, gedənlər dönməyir geri,
Məzhəbə uyanlar deyilmi axmaq.

Mənimlə döyüşsə nadan cahillər,
Eşqimdən çəksəm də min bəla əgər.
Deyərəm: - Mərdindir sevgi şərbəti!
Namərd bu qədəhdən qalar bixəbər.

Az dost tap, dostlara az gəz, az dolan,
Uzaq ol bu dövrün insanlarından.
Ağıl nəzərilə baxsan dostuna
Görərsən olmuşdur o sənə düşmən.

Qurban xərabata, əhli əhldir,
Onun pis işləri belə səhldir.
Hələ mədrəsədən çıxmayıb arif,
Çünki bu xaraba darül – cəhldir.

Mən oldum oruca, namaza mail.
Dedim ki, muradım olacaq hasil.
Əfsus, dəstaməzı sındırdı bir yel,
Bir yudum mey etdi orucu batil.

Bu dövranda ağıl keçməyir işə
Bilməz ağılsızlar kədər, əndişə.
Ağlımı aparan, meyi gətir ki,

Fələk gülümsəsin mənə həmişə.

Ey fələk, çarxına yoxdur hörmətim,
Burax, bağlanmağa yox ləyaqətim.
Sənin meylin düşüb ağılsızlara,
Mənimsə ağıldan yoxdur qismətim.

Ah, yazıq, kədərli virana könlüm,
Daim məftun oldun canana könlüm,
Oldun eşq şərabı paylayan gündən
Sən ciyər qanına peymana könlüm.

Çəməndə bu gecə ağlar gəzirkən,
Ətrini alırdım güldən, çiçəkdən.
Quşlar da dinlədi böyük maraqla
Vəsfini güllərə söyləyincə mən.

Ey dördlə yeddinin məhsulu, insan,
Bu dördlə yeddidə nə qovrulursan.
Mey iç ki, min dəfə demişəm sənə
Bir kərə getdinmi, dönməzsən, inan.

Gül rəngli badə iç gül mövsimində,
Neyin naləsində, sazın səsində
Mey içib qəlbimi şad edirəm mən,
İçmirsən, özün bil, get daş ye sən də.

Vurub piyaləmi devirdin, allah,
Eyşimi matəmə çevirdin, allah.
Bu al şərabımı tökdün torpağa;
Yoxsa sərxoşluqmu sevirdin, allah.

O gün ki, fələkçün at yəhərləndi,
İşıqlı ulduzlar göydə hərləndi.



Günahımız nədir bilmirəm, o gün
Qəzadən bizimçün bu qismət endi.

Bu əlim ki, tutur cam ilə sağər,
Heyf olmazmı tutsun kitab, ya mənbər.
Sən quru zahidsən, mən yaş günahkar,
Yaş yanmaş, qurunu yaxar atəşlər.

Cahanı bəzəyib gül üzlü bahar,
Bulutun gözündən axır bulaqlar.
İsanəfəslilər çıxır torpaqdan,
Musa tək parlayır şaxlar, budaqlar.

Bəxtiyar odur ki, məşhur olmadı,
Cübbə geyinərək məğrur olmadı,
Uçdu simurğ kimi ərşi – əladə,
Bayquş kimi yerdə mənfur olmadı.

Bu cəfakarlığa alışan fələk,
Etməmiş dünyada heç kəsə kömək.
Görsə bir yanıqlı, yaralı ürək
Yaranın üstündən bir dağ çəkəcək.

Dostun xahişini dost yerə salmaz,
Hər zaman əlində iqtidar olmaz,
Vəfasız dünyaya bel bağlama çox,
Gedər bu gözəllik, sənə də qalmaz!

Ariflər yaratmış sözdən dürr, gövhər.
Göylərin işindən qalmış bixəbər.
Cahanın sirrini aça bilmədən
Bir neçə söz deyib çıxıb getmişlər.

Olsa şərab, mütrüb, bir gözəl canan,

Bir axar su olsa, bir də gülüstan.
Bu əsil cənnətdir, cəhənnəm sözü
Boş sözdür, inanma, ona heç zaman.

Pərişan saçına uzatdımsa əl,
Ona məhəbbətdən bağladım əməl.
Saçlarında gördüm dəli könlümü,
Odur, əl uzatdım ona, ey gözəl.

Kövsərdir gördüyüm hər axar bulaq,
Gözəl bir cənnətdir hər çiçəkli bağ
Cəhənnəm sözünü burax, cənnətdə
Bir gözəl dilbərlə otur keyfə bax.

Aşiqə qanaddır mey, şirin baldır,
Gözəlin üzündə zərif bir xaldır,
Rəməzan ayında badə içmədik
İçək, bayram gəlib, indi şavvaldır.